*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 110-117* *ISSN: 2663-4406*

**UOT:** 071(091)
Gülbəniz Babayeva*

# SATİRİK POEZİYADA ELM VƏ TƏHSİL MƏSƏLƏLƏRİ
## *("Molla Nəsrəddin" jurnalı əsasında)*

***Xülasə***

1906-cı ildə H.Zərdabi və N.Nərimanovun rəhbərliyi ilə keçirilən müəllimlər qurultayından sonra elm, təhsil və maarif sahəsində bir sıra yeniliklər – ana dili dərslərinə geniş yer verilməsi, qız məktəblərinin açılması, təbiət elmlərinin tədrisinə çox saat ayrılması, əyani vəsaitlərdən istifadənin yaxşılaşdırılması və s. məsələlər mollanəsrəddinçiləri dərindən düşündürmüş və yeni əsərlər yazmağa ruhlandırmışdır. Bu baxımdan M.Ə.Sabirin "Uçitellər", "Müəllimlər syezdi", "Oxutmuram əl çəkin", "Uşaqdır"; Əli Nəzminin "Məktəb", "Çalışma elm üçün", "Nə idi", "Molla Arifə deyir"; B.Abbaszadənin "Şərqin səadəti", "Maarifə doğru", "Ey şəmsi-səadət" və s. şeirlərində dövrün böyük ziyalısının öz mühitinin, zəmanəsinin, insanlarının elmdən, təhsildən geridə qalmasından dərindən narahatlıq açıq-aydın görünür.

**Açar sözlər:** "Molla Nəsrəddin" jurnalı, satirik poeziya, elm, təhsil, M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Razi, B.Abbaszadə

## SCIENCE AND EDUCATION PROBLEMS IN SATIRICAL POETRY
### *(On the basis of the journal "Molla Nasreddin")*

***Summary***

After the congress of teachers in 1906 under the leadership of H.Zardabi and N.Narimanov, several innovations in the sphere of science, education and enlightenment – issues like giving wide coverage to native language lessons, opening of girls' schools, allocating a lot of time for teaching natural sciences, improving the use of visual aids and so on, forced Molla Nasraddin researchers as intellectuals and poets to think deeply and inspired them to write new works.

From this point of view, in the satires like "Teachers", "Congress of teachers", "Do not educate, get away from me", "Child" by M.A.Sabir; "School", "Do not work for science", "Let it be so", "Molla says to wise man" by A.Nazmi; "Towards enlightenment", "No need for science", "Shams-i seadet" by B.Abbaszadeh, it is deeply reflected people's troubles in science and education, and shown how to get rid of it.

**Key words:** the journal "Molla Nasreddin", satirical poetry, science, education, M.A.Sabir, A.Nazmi, A.Razi, B.Abbaszadeh

## ПРОБЛЕМЫ НАУКИ И ОБРАЗОВАНИЯ В САТИРИЧЕСКОЙ ПОЭЗИИ
### *(На основе журнала «Молла Насреддин»)*

***Резюме***

После съезда учителей в 1906 году под руководством Г.Зардаби и Н.Нариманова много инноваций в области науки, образования и просвещения – такие вопросы, как широкое углубление уроков родного языка, открытие школ для девочек, многочасовое увеличение преподавания естественных наук, улучшение использования наглядных пособий и т.д., заставили молланасреддинцев, как интеллектуалов и поэтов, глубже задуматься и вдохновиться на новые произведения. С этой точки зрения, в сатирах М.А.Сабира «Учителя», «Съезд учителей», «Не даю образование, отстаньте», «Ребёнок», А.Назми – «Школа», «Не работай на науку», «Пусть будет так», «Говорит Молла Ариф», Б.Аббасзаде – «На пути к просвещению», «Не нужно науки», «Шамс-и-Саадет» отражается глубокое беспокойство по поводу отставания людей в науке и образовании и показаны способы избавления от него.

**Ключевые слова:** журнал «Мола Насреддин», сатирическая поэзия, наука, образование, М.А.Сабир, А.Назми, А.Рази, Б.Аббасзаде

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru. E-mail: gulbeniz-babayeva@mail.ru

**Giriş.** Mollanəsrəddinçilərin yaradıcılığında prioritet mövzulardan olan elm və təhsil məsələlərinin satirik poeziyada bədii həllini necə tapdığını müəyyənləşdirmək.

XX əsr Azərbaycan demokratik ədəbi mühiti realist poeziyanın yaradılmasını zəruri və təxirəsalınmaz bir məsələ kimi gündəmə gətirdi. Bu proses mollanəsrəddinçilərin yaradıcılığında reallaşaraq satirik poeziyada yeni mövzu, ideya, üslub və bədii forma rəngarəngliyi yaratdı. M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Razi, B.Abbaszadə kimi şairlərin yaradıcılığında mollanəsrəddinçi poeziyanın novatorluğu, çoxçalarlığı və zənginliyi bütün parametrlərdə öz əksini tapa bildi.

M.Ə.Sabir ilə başlanan tipi öz dili ilə ifşa metodu, yeni satirik janrların meydana çıxması, şeirdə satirik dialoq və monoloqdan istifadə, poeziyada fərdiləşdirmə, ümumiləşdirmə və tipikləşdirmə kimi xüsusiyyətlər mollanəsrəddinçilərin yaradıcılığının başlıca leytmotivini təşkil edirdi.

"Molla Nəsrəddin" jurnalının poeziya qolunun aparıcı xətti M.Ə.Sabir yaradıcılığı ilə səciyyələnir. Sabir dövrün bir çox ziyalıları kimi geriliyin, cəhalətin aradan qaldırılmasında maarif və mədəniyyətin müstəsna rolunu dəyərləndirir, yeni tipli məktəblərin açılmasına və uşaqların tədris ocaqlarına cəlb olunmasına böyük əhəmiyyət verirdi. Akademik İsa Həbibbəyli yazır: "M.Ə.Sabir yaradıcılığında məktəb, maarifçi ziyalı, məktəbə gedən uşaq, elmə, təhsilə köhnəpərəst münasibətin tənqidi mühüm yer tutur. Şərti olaraq bu tip şeirləri maarifçi satirik şeirlər adlandırmaq olar. "Bilməm nə görübdür bizim oğlan oxumaqdan", "Neçin məktəbə rəğbətim olmayır", "Uşaqdır", "Uçitellər", "Müəllimlər syezdi", "Oxutmuram əl çəkin", "Ürəfa marşı" və sair kimi satiralarında elmsizliyin, savadsızlığın bəlaları, məktəbin və təhsilin düşmənlərinin ifşası, yalnız elm öyrənməklə, təhsil almaqla özünüdərkin isbatı kimi öz dövrü üçün çox aktual olan məsələlərdən söz açılmışdır" [1, s.215].

Şairin "Uçitellər", "Baş tutdu...", "Bu boyda! Bu boyda!", "Vah! Bu imiş...", "Təşəkkür", "Neçin məktəbə rəğbətim olmayır" və s. satirik şeirlərində keçən əsrin elm, maarif məsələlərinin tipik xüsusiyyətləri sənətkarlıqla göstərilir. "Vah! Bu imiş dərsi-üsuli-cədid?!" satirasında savadsız, cahil atanın övladını yeni tipli məktəbdən çəkindirməsi, uşaqların beynini boş, cəfəng fikirlərlə doldurub mövhumatı təbliğ edən mollaların elm öyrədən müəllimdən üstün tutulması kimi ikrah doğuran həyati faktlar kinayəli, acı gülüşlə müşayiət olunur:

*Vah! Bu imiş dərsi-üsuli-cədid?!*
*Yox...x! Yo...x! Oğul, məktəbi-üsyandı bu! [2, s.182]*

Sabir "Uçitellər" və "Baş tutdu..." satiralarında elm və maarifin inkişafına əngəl törədən cahilləri tənqid edir və ziyalılarımıza üz tutaraq doğma dilimizdə yeni dərslik kitablarının yazılması, ana dilinin tədrisinə xüsusi diqqət yetirilməsi, dünyəvi elmlərin öyrədilməsinə üstünlük verilməsi, qız məktəblərinin, sənət məktəblərinin açılması kimi mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsinə məsuliyyətlə yanaşmağın vacibliyini göstərir.

Sabirin yaratdığı satirik üslubda dinamiklik dilin fəal atributu kimi ortaya çıxır. Şair üçüncü şəxsin dilindən söylənən nağıl – təhkiyə formasına istinad etmir, çünki bu formada əsasən passivlik hiss olunur. Burada təhkiyəçi, yəni üçüncü şəxs danışır, digərləri isə sadəcə əhvalat və hadisənin dinləyicisi kimi qeyri-fəal mövqedə dayanır. Sabir satiralarında birinci şəxsin danışığına üstünlük verilir. Bu məqamda həmin şəxs çox sərbəst şəkildə, sanki özünü haqlı hesab edərək, hər şeyi öz düşüncə tərzinə, dünyagörüşünə uyğun olaraq səmimi etiraf edir. Bəzən isə birinci şəxs ikinci bir üslubu seçərək qarşısındakını müsahib, həmsöhbət hesab etdiyindən bütün fikirlərini onunla bölüşür:

*Oğlumuz, ay Xansənəm, bir yekə pəlvan imiş!*
*Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş!*

*Doğrusu məktəb demək guşeyi-zindan imiş!*
*Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş! [2, s.143].*

Göründüyü kimi, bədii nitq öz obyektini, hədəf nöqtəsini tapdığından abstrakt formada qalmır, bir növ əyaniləşə bilir. Deməli, nitqin özü konkretləşdiyi üçün onun təsir dairəsi də güclü, sərrast və kəsərli olur.

Sabirin elm, təhsil məsələlərini əks etdirən satiralarında şairin birinci və ikinci şəxsin tək və cəmində işlətdiyi şəxs əvəzlikləri öz bədii nitqi vasitəsilə həmin tipin xarakterini bütövlükdə səciyyələndirir və onun monoloqu oxucuda aydın təsəvvür yaradır. Məs:

*Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!*
*Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin! [2, s.222].*

Əgər dram əsərlərində oxucu və yaxud tamaşaçı hadisələri əyani şəkildə görür, eşidir və dərk edirsə, satiriklərdə bu missiyanı bədii nitq yerinə yetirir və nitqin səlisliyi, söz çalarlarının düzgün seçimi baş vermiş situasiyanı oxucu təsəvvüründə əyaniləşdirmək gücünə malik olur. Bu zaman reallığın özü görünməsə də, onun əlamətləri qabarıq şəkildə nəzərə çarpır.

Mollanəsrəddinçilərin leksikonunda müxtəlif zümrələri təmsil edən obrazların özünəməxsus, fərdi danışıq aktı var. Bir çox hallarda mənfi tiplərin dilində işlənən ifadələr öz həqiqi, nominativ mənasından uzaqlaşaraq, ona zidd olan tamamilə başqa bir anlam daşıyır. Təbii ki, sənətkar həmin tipin mənsub olduğu ictimai təbəqəyə tam müvafiq olaraq, obrazın cəmiyyətdə baş verən hadisələrə fəal, yoxsa qeyri-fəal münasibətini, daxili aləminin zəngin, yoxsa bəsit, məhdud olmasını çatdırmaq üçün ilk növbədə nitq faktoruna müraciət edir. Oxucuda dolğun və aydın təsəvvür yaratmaq baxımından bu ədəbi priyom olduqca zəruridir. Bir çox hallarda ümumxalq dilində funksionallaşan ifadələrin öz həqiqi mənasından çıxaraq əks qütbdə dayanması və mənfi tiplərin dilində işlənməsi artıq jarqonlaşmaya gətirib çıxarır. Şübhəsiz ki, bu da birbaşa xarakterlərin açılmasına, tipin fərdi cizgilərinin aşkarlanmasına xidmət edir. Burada işlədilən sözlər öz estetik gözəlliyindən, zərifliyindən çıxaraq kobudlaşır, qabalaşır. Məs:

*Bir bölük boşboğazıq, heyvərəlik adətimiz,*
*Doludur lənət ilə, qeybət ilə söhbətimiz,*
*Oxumaqdan payımız yox, yazıdan qismətimiz [2, s.219].*

Sabir satirik tipin ifşası zamanı onu tanıtmaq məqsədilə jarqonlardan yerli-yerində istifadə edir. Özünü “boşboğaz”, “heyvərə” adlandıran, “oxumuşları lənət ilə yad edən” belə tipin ikrah, nifrət doğuran nitqi özünə qarşı bir silaha çevrilir və oxucunun öldürücü gülüşünün qəhqəhələri altında əzilir, məhv olur. Bütövlükdə cəmiyyətə, insanlıq adına ləkə olan, elmə, təhsilə, mədəniyyətə həqarətlə, nifrətlə baxan belə satirik tiplərin ümumiləşmiş obrazını yaradan şair nitq faktorundan sənətkarlıqla istifadə etmişdir.

Satiriklərin dilində həm əsas, həm də köməkçi nitq hissələrinin substantivləşməsi əsas üslubi faktorlardan biri kimi təzahür edir. Substantivləşmə təkcə qrammatik səciyyə daşımayıb, həm də XX əsrin əvvəllərində ictimai-siyasi, ədəbi-mədəni anlayışların, hadisələrin ifadə formasını və üslubi mahiyyətini kəsb etmişdir. Eyni zamanda satiriklərin yaradıcılığında özünü göstərən substantivləşmə daha çox ictimai-siyasi anlayışları ifadə edən terminlərdə özünü göstərir. Bu zaman qrammatik subyekt və yaxud obyekt ixtisara düşür ki, onu da substantivləşən söz əvəz edir. Yəni ellipsis hadisəsi baş verir. Satiriklər bu vasitə ilə subyekti tipikləşdirə bilirlər.

Xüsusilə də, Sabirin satirik şeirləri bu baxımdan olduqca zəngindir. Dialoq şəklində qurulan “Cavan-qoca” şeirini nəzərdən keçirək:

*- Yeni məktəb açılıbmı vətən övladı üçün?*
*- Az deyil Adəm açan mədrəsə əhfadı üçün.*
*- Oxuyurmu qəzetə şəhrinizin əhli tamam?*
*- Bəzi sarsaq oxumuşlar oxuyur, mən oxumam. [3, s.2].*

Şeirdə satirik tipin dilində "oxumuşlar" sözü substantivləşərək yeni məna çaları yaratmış, yəni əslində, feilin təsriflənməyən formalarından biri olan feili sifət isimləşərək təyin deyil, mübtəda funksiyasını yerinə yetirmişdir. Substantivləşən "oxumuşlar" sözü başqa bir təyinlə – "sarsaq" jarqonu ilə işlənmiş və tipin xarakterik cizgiləri, daxili aləminin boşluğu nitq faktorunda müəyyənləşmişdir. Şairin "Əhvalpürsanlıq, yaxud qonuşma" adlı satirik dialoqunda yenə də elmə, təhsilə xor baxan cahil insanların dilində vulqar sözlərdən istifadə edilərək tipin öz dili ilə özünü ifşa üslubu yaradılmışdır.

*- Dəxi bir başqa xəbər?*
*- Hacı Cəfərin oğlu Vəli*
*Qoyub uşqolaya oğlun...*

*- O qurumsaq da?*
*- Bəli! [2, s.216].*

Mollanəsrəddinçilər öz yaradıcılıqlarında bədii təkrirlərdən geniş istifadə etmişlər. Onlar həm folklorumuzda, həm də klassik bədii dildə bol-bol işlənən bu bədii ifadə vasitələrindən yaradıcılıqla bəhrələnmişlər. Mollanəsrəddinçilərin nəsr və nəzm dilində təkrirlərin hər üç növünə – fonetik, leksik və sintaktik tipinə geniş yer verilmişdir. Xüsusilə də, Sabir yaradıcılığında bədii təkrirlərin bənzərsiz nümunələrinə çox rast gəlirik.

Təkrirlər poeziyada fikri qüvvətləndirmək, ahəngdarlığı artırmaqla yanaşı, həm də melodik ritm yaradır. Bu baxımdan, şeirdə daha çox səslərin və sözlərin təkrarı önəmli yer tutur. Təkrirlər işlənmə yerinə görə iki növə bölünür: anafora, epifora.

Anafora üçün təkrar olunan sözlərin misranın əvvəlində yanbayan və yaxud da alt-alta işlənməsi səciyyəvidir:

*Məktəb, məktəb, nə dilgüşasən,*
*Cənnət, cənnət desəm səzasən.*
*Şadəm, şadəm təfərrücündən,*
*Əlhəq, əlhəq, gözəl binasən! [2, s.315].*

Şeirdə "məktəb", "cənnət", "şadəm", "əlhəq" sözlərini təkrarlamaqla ritm yaradan sənətkar əsərin bədii təsir gücünü artırmış və ahəngdarlığı təmin etmişdir. Bununla da, məktəbi cənnətə bənzədən şair uşaqlarda elmə, təhsilə maraq oyadır və təhsilin vacibliyini vurğulayır.

Epiforada isə təkrar olunan sözlər anaforadan fərqli olaraq, misranın sonunda yanbayan işlənir:

*Neçin məktəbə rəğbətim olmayır?*
*Cibim dolmayır, dolmayır, dolmayır!*

*Və bir də bu məktəblilər bilümum*
*Oxurlar kəmalınca ali ülum,*
*Edirlər sonra bizə yeksər hücum,*

*Bununçün ona rəğbətim olmayır,*
*Cibim dolmayır, dolmayır, dolmayır! [2, s.228]*

Şeirin satirik qəhrəmanı məktəbə nifrətlə, həqarətlə baxan tipik obrazdır. Elm, təhsil müəssisəsinə gəlir mənbəyi kimi baxan bu möhtəkir obraz dönə-dönə "cibim dolmayır, dolmayır, dolmayır" söyləməklə özünün pula hərisliyini, mənəvi cılızlığını bədii təkrirlər vasitəsilə qabarıq şəkildə nəzərə çatdırır və oxucunun nifrətini qazanır.

Mollanəsrəddinçilər satirik yazıları ilə acı, kinayəli gülüş və göz yaşının qarışığından yaranan sinkretik bir üslub yaratmışlar. Anoloji vəziyyət həm Mirzə Cəlil felyetonları, həm də Sabir satiraları üçün səciyyəvidir. Bəzən həyat və məişətimizdə işlənən neytral sözlər mollanəsrəddinçilərin yaradıcılığında adi ifadə formasından çıxaraq satirik funksionallığa gətirilir və üslubi çoxçalarlılıqla müşayiət olunur. Dilimizdə çox işlənən oğul, uşaq, məktəb və s. sözlər də məhz bu qəbildəndir. Məs:

*Ay başı daşdı kişi, dinmə, uşaqdır uşağım!*
*Nə ədəb vaxtıdı, qoy söysün, uşaqdır uşağım!*
*Kişi, az söylə mənə bir dəxi məktəb sözünü!*
*Yəni məktəblə uşaq kamil edərmiş özünü? [2, s.154]*

Şeirdə müəllif kinayəsi hakimi-mütləq funksiyasını daşıyaraq tipə qarşı nifrət hissi oyadır. Elmə, məktəbə münasibətdə tipin düşüncə tərzinin bəsitliyi, avamlığı onun yanlış tərbiyə üsulunda və nitq aktında ortaya çıxır və güclü sarkazm yaradır.

1906-cı ildə H.Zərdabi və N.Nərimanovun rəhbərliyi ilə keçirilən müəllimlər qurultayından sonra elm, təhsil və maarif sahəsində bir sıra yeniliklər – ana dili dərslərinə geniş yer verilməsi, qız məktəblərinin açılması, təbiət elmlərinin tədrisinə çox saat ayrılması, əyani vəsaitlərdən istifadənin yaxşılaşdırılması və s. məsələlər Sabiri bir müəllim, ziyalı və şair kimi ruhlandırmışdı. Bununla yanaşı, hələ də təhsil sahəsində köhnə sxolastik düşüncələrlə yaşayan mühafizəkar insanlar vardı ki, onlar mollaxanalarda "əti sənin, sümüyü mənim" prinsipi ilə keçirilən dərslərə, öyrədilən təlimlərə üstünlük verir və övladlarını geriliyə, cəhalətə sürükləyirdilər. Belə məhdud dünyagörüşlü, mühafizəkar və mürtəce insanlar Sabir yaradıcılığında qəzəblə, nifrətlə qamçılanır. Yeni açılan məktəblərə və təlim üsullarına qarşı çıxan belə cahil insanları şair tənqid hədəfi seçərək tipin öz dili ilə özünü ifşa edir:

*Məktəblər açıb eyləyin ehsanı, – deyirlər,*
*Məktəbdə qoyun ustulu, dasqanı, – deyirlər,*
*Pərpuç eləyin çubi-fələqqanı, – deyirlər,*
*Dişrə çıxarın həzrəti-mollanı, – deyirlər,*
*Molla qovula, yəni müəllim gələ, vah-vah!*
*Lahövlə vəla qüvvətə illa və billah! [2, s.92]*

Şair satirada leksik-semantik mənanı konkretləşdirmək və daha qabarıq nəzərə çatdırmaq məqsədilə məntiqi vurğunu ismin müəyyənlik bildirən təsirlik halında işlənmiş ehsanı, ustulu, dasqanı, çubi-fələqqanı, həzrəti-mollanı leksik vahidlərinin üzərinə salır. Məhz vurğu qəbul etmiş həmin ifadələr vasitəsilə satiranın bədii fikir yükünün çəkisi artır, mərkəzi asanlıqla qavranılır, diqqət cəlb edir. Bununla yanaşı, digər mollanəsrəddinçilər kimi Sabir yaradıcılığında da dilin bütün üslubi imkanlarından ustalıqla istifadə yolu ilə müxtəlif zümrəni və müxtəlif cəbhəni təmsil edən insanlara çağırış motivləri üstünlük təşkil edir. Belə bir yanğılı haray, təhriketmə üçün şair feilin əmr şəklini seçir. Bu üslubun tətbiqi sayəsində Sabir satiralarının ictimai fəallığı artır, təsir dairəsi daha da genişlənir. Beləliklə, feilin əmr morfemi kinayəni çoxaldır, dinamikanı fəallaşdırır, eks-

pressivlik çaları yaradır. Sabir satiralarında feilin xəbər şəklindən sonra ən çox işlənən əmr şəklidir ki, bu da komik-satirik nitq mühiti yaratmaqda əlverişli vasitədir.

Sabir satiralarında hər bir tip mənsub olduğu təbəqənin dilində danışır. Elmdən, təhsildən uzaq, avam, savadsız bir qadının danışıq aktı da həmin tipin naturasına tam uyğundur:

*Gah yazır, gah oxuyur, gah danışır,*
*Gündə bir hərzə kitabnan tanışır... [2, s.178]*

Şeirdə indiki zaman mənalı feillərin aktivliyi və çoxluğu diqqət çəkir, eyni zamanda bu fəallığın yaranmasında bölüşdürmə bağlayıcılarının da xüsusi rolu var.

M.Ə.Sabirin yaradıcılığında yoxsul həyat tərzi keçirən uşaqların kədərli həyat həqiqətləri, onların üzünə məktəb qapıları bağlayan hakim dairələrin mənfur əməlləri satira atəşinə tutulur.

- *Qafqaz əhli üç il ərzində nə emal eylədi?*
- *Məktəbə onlar, hər yerdə hümmət ibzal eylədi!*
- *Mərhəba! Səd mərhəba!..*
- *Bəs bu az müddətdə məktəblər qapandı ya nədən?*
- *Həp çocuqlar dövreyi- təhsili ikmal eylədi!*
- *Mərhəba! Səd mərhəba!.. [2, s.267]*

Sabir satirada məktəblərin hakim dairələr tərəfindən bağlanması fikrini birbaşa açıqlamır, mövcud quruluşda, şəraitdə işlədilməsi qeyri-mümkün olan tabulardan deyil, ideomatikanın bir qolunu təşkil edən evfemik ifadələrdən istifadə edir. Təbii ki, senzura tərəfindən ciddi nəzarətdə olan “Molla Nəsrəddin”in səhifələrində əsas tənqid hədəflərinin öz adları ilə deyilməməsi, kəskin, qaba sözlərin yumşaldılaraq müəyyən ədəb dairəsində olan ifadələrlə əvəz edilməsi başa düşüləndir. Əslində şair “uşaqlar təhsillərini kamala çatdırmışlar” fikrini səsləndirməklə güclü sarkazm yaratmış, dolayısı ilə də olsa, neştərini hədəfə tuşlaya bilmişdi. Əlbəttə ki, oxucu üçün heç bir fikir dolaşıqlığı yoxdur, hər şey aydınca görünür.

Bəzən şair məktəblərin qapanması məsələsinin təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da baş verdiyini tənqid edir. Ancaq belə məqamlarda satirik tip birbaşa öz adı ilə ifşa obyektinə çevrilir. Məsələn:

*Məktəbə düşmən olan bəzi müqəddəs (?) üləma*
*Ostroumova yazmaz da təşəkkür nə üçün?*
*Kişi Xoqənddə məktəbləri bağlatdı bütün...*
*Bir rizanaməyə bunlarda təəzzür nə üçün? [2, s.276]*

Müəllif təhkiyəsi ilə qələmə alınan satirada şair “müqəddəs üləma” adlandırdığı şəriət vaizinin məktəbə qənim kəsildiyini kinayəli tərzdə nəzərə çatdırır. Nəticə etibarilə satirada nə üləmanın, nə də Xoqənddə məktəbləri bağlatdıran Ostroumovun nitqi eşidilmir. Lakin müəllif hər iki mənfi obrazın eyni əqidə ətrafında birləşməsini elmə, təhsilə düşmən münasibətlərini, onların bədii xarakterini, düşüncə tərzini açmaqla satirik situasiya və satirik obrazları aydın şəkildə oxucunun mühakiməsinə verir.

*Bilməm nə görüb məktəbi-ürfanda bizim qız,*
*Təhsili-ədəb, dərsi-dəbistanda bizim qız [4, s.2].*

Satirada nəzm əsərləri üçün xarakterik olan inversiya hadisəsi müşahidə olunmaqdadır. Misralarda “görüb” və “korlamış” feilləri nəqli keçmiş zamanda baş vermiş məsələ haqqında məlu-

matı çatdırır. "Bilmirəm" feili fonetik dəyişməyə uğrayaraq "bilməm" şəklini almışdır. "Bizim qız" birləşməsi satirik obrazın dilində işlənərək rədif yaratmışdır. İsmin yiyəlik halında işlənən "bizim" şəxs əvəzliyi konkret olaraq valideynin öz qızına müraciəti kimi səslənsə də, əslində müəllif burada satirik tərzdə dərin ümumiləşdirmə fonu yaratmışdır. Elmdən, təhsildən uzaq olan valideynin öz övladının əxlaq və tərbiyəsinin məktəbdə pozulmasını etiraf etməsi tam təzad yaradaraq paradoksallaşır. Axı məktəb təlim-tərbiyə ocağıdır. Satirik tipin dilindən səslənən, qabarıq şəkildə nəzərə çarpan ifadələrdə fikir antonimliyi mənanın təsir dairəsini kəskinləşdirir və güclü sarkazma yol açır.

Komik-satirik üslubu yaratmaq üçün şair bəzən təbii olaraq qrammatik qayda-qanunlardan kənara çıxaraq fikrin daha sadə, rahat, anlaşıqlı olması məqsədi ilə tələffüz şəklinə üstünlük verir. Satiradakı "bilməm" sözü də bu qəbildəndir. F.Hüseynov M.Ə.Sabirin "Ay başı bəlalı", "Təhsiliülum", "Oğlum", "Utanmırsan, utanma" və s. bəhri-təvillərinə istinadən deyir: "Bu əsərlər şairin yeni insan tərbiyəsi, elmə, maarifə, oyanış və yüksəlişə çağırış istəklərinin bədii ifadəsidir [5, s.155].

Sabirin yaradıcılığında yoxsul həyat tərzi keçirən uşaqların kədərli həyat həqiqətləri, onların üzünə məktəb qapıları bağlayan hakim dairələrin mənfur əməlləri satira atəşinə tutulur. O dövrdə onsuz da az olan məktəblərə buraxılmayan uşaqlar günlərini boş-boş gəzib dolanmaqla keçirir, hətta bir çox hallarda pis işlərə qurşanır və əxlaqi dəyərləri itirirdilər. "Uşaqlara", "Dilbər", "Rəhgüzarıməxluqatda bir möhtaci-məsarif" şeirlərində Sabir yaradıcılığı üçün xarakterik olan kəskin satirik ittihamdan daha çox mövzuya uyğun olaraq qəm, kədər motivləri üstünlük təşkil edir:

*Ey dərbədər gəzib ürəyi qan olan çocuq!*
*Bir loğma nan üçün gözü giryan olan çocuq!.. [ 2, s.134]*

Sanki şair bu misralarda bir parça çörək üçün küçələri dolaşan, "ürəyi qan olan" çocuqların göz yaşlarını silir. Onları bu çətin duruma salan, təhsildən, tərbiyədən məhrum edən cəmiyyəti, dövləti və onun başında dayanan biganə insanları ən ağır cəza ilə, satirik ittihamla cəzalandırır.

Sabir yaradıcılığında çox doğru olaraq elm, təhsil məsələləri tərbiyə, əxlaq problemləri ilə vəhdətdə qələmə alınır ki, bu da mövcud problemlərə olduqca real yanaşmadır. Təsadüfi deyildir ki, Sabir cəmiyyətdə gedən proseslərə fəal münasibət bildirən ziyalı kimi həm elmi, təhsili, maarif və mədəniyyəti təbliğ edən əsərlər yazır, həm də uşaqlar üçün "Məktəb uşaqlarına töhfə", "Məktəb şagirdlərinə töhfə", "Məktəbə tərğib", "Elmə tərğib", "Məktəb şərqisi" və b. şeirləri ilə uşaq ədəbiyyatının yaradıcılarından birinə çevrilir. Bu şeirlərində Sabir uşaqların cəmiyyətdə əsl vətəndaş kimi formalaşmasında məktəbin müstəsna rolunu göstərir, onları məktəbə, elmə, təhsilə səsləyir və çalışqan, bilikli, əxlaqlı olmağın zəruriliyini nəzərə çatdırırdı. Hər bir övlad üçün ata, ana və müəllim nəsihəti necə dəyərli və əhəmiyyətlidirsə, Sabir şeirləri də o dərəcədə ibrətamiz və əvəzolunmazdır.

Ə.Nəzmi satiralarında da Sabirə məxsus köhnəliyə, dini xurafata, cəhalətə, nadanlığa, sxolastik qayda-qanunlara barışmazlıq çağırışı güclüdür.

Əli Nəzminin istər satiralarında, istər uşaq şeirlərində, istərsə də didaktik xarakterli təmsillərində əsas leytmotiv elmin, təhsilin, mədəniyyətin təbliğinə köklənmişdir. Şairin satirik şeirlərində isə əsasən xalqın maariflənməsinə qarşı çıxan düşmən qüvvələr sərt şəkildə ittiham olunaraq ciddi tənqidə məruz qalırlar. Şairin "Məktəb", "Çalışma elm üçün", "Olsun", "Nə idi", "Pozdu işi bu qəzet yazanlar", "Tazələr", "Molla arifə deyir" və s. şeirlərində jurnalın məqsəd və məramına uyğun olaraq əsas hədəf xalqın maariflənməsinə yönəldilmişdir. Bu mövzulu şeirlərin bir qismində elmə və elm sahiblərinə, onun təbliğatçılarına hörmət hissi aşılanır, satirik səpkili şeirlərdə isə milli şüurda baş verən oyanışa, yeniləşməyə, elmin və mədəniyyətin yüksəlişinə sədd çəkən köhnə fikirli, mühafizəkar insanlar satira atəşinə tutulur.

*Hər kimə nəql eləyirsən mədəniyyət sözünü,*
*Qabarıb üstünə, hiddətlə bərəldir gözünü [5, s.42].*

Ə.Nəzmi yaradıcılığında mollanəsrəddinçilərdə xüsusi vurğulanan qadın azadlığı problemi şairin "Qızlarımız", "Dabanıçatdaq xalaya", "Arvadlarımız", "Bir qızın Molla Nəsrəddinə ərzihalı", "Məsləhət", "Evlənməz idim" və s. əsərlərində daha sərt şəkildə qələmə alınmışdır. Ə.Nəzminin yaradıcılığında başqa mollanəsrəddinçi şairlər kimi, xüsusilə Sabir yaradıcılığında çox nəzərə çarpan elm, təhsil, maarif məsələləri qadın azadlığı problemi ilə üzvi vəhdətdə, sıx bağlı məsələlər şəklində yanaşılır. Əsasən də, Ə.Nəzminin digər mollanəsrəddinçi şair Ə.Razi ilə şeirləşməsində bütün insani hüquqlardan məhrum edilmiş Azərbaycan qızlarının, zavallı qadınlarımızın acınacaqlı, faciəli ömür yolu satirik tərzdə, acı göz yaşları içərisində ifşa olunur. Əli Nəzminin "A qızlar" şeirində də həmin ruh hakimdir.

*Ay elmsiz aləmdə yanan narə, a qızlar!*
*Taleləri mənhus, günü qarə, a qızlar! [5, s.40]*

Bu misralar qadın azadlığının kobud şəkildə pozulduğunu əks etdirən acı fəryadlar, göz yaşları ilə süslənmiş köməksiz bir zavallının nalələri, çarəsiz etiraflarıdır.

B.Abbaszadə yaradıcılığında da digər mollanəsrəddinçilərlə yanaşı, elm, maarif, mədəniyyət məsələləri geniş yer tutur. Şairin "Şərqin səadəti", "Maarifə doğru", "Ey şəmsi-səadət", "İşçi", "Vəsiyyət", "Nə gərək elm..." şeirlərində dövrün böyük ziyalısının öz mühitinin, zəmanəsinin insanlarının elmdən, təhsildən geridə qalmasından dərindən narahatlığı açıq-aydın görünür. Xüsusilə, şairin "Molla Nəsrəddin"ə ünvanladığı "Vəsiyyət" satirasında jurnalın yeni təlim metodlarının, dünyəvi elmlərin tədrisini geniş təbliğ etməsini satirik tipin dili ilə sətiraltı eyhamla diqqətə çatdırır.

*Sən deyirsən ki, gedin elmi-riyazi oxuyun,*
*Buna kim razı olur ki, belə göftar elədin.*
*Kişi, əl çək, bu qədər fitnə-fəsad etmə dəxi,*
*Ki, bütün xalqı özündən dəxi bezar elədin [6, s.61].*

"Molla Nəsrəddin"in sərt, kinayəli, eyni zamanda ecazkar poetik dili canlı xalq danışıq üslubunu özündə yaşadan, bitib-tükənməyən zəngin xəzinədir. Əsl mətləbi dolayısı ilə, sətiraltı eyhamlarla çatdıran mollanəsrəddinçilər əvəzsiz folklorumuzdan və klassik poeziyamızın dərin lirizmindən ustalıqla bəhrələnmiş və xalqımıza möhtəşəm bir abidə qoyub getmişlər.

**Nəticə.** Məqalədə ilk dəfə olaraq elm və təhsil məsələlərini özündə ehtiva edən poetik nümunələrin sənətkarlıq xüsusiyyətləri, dil və ifadə tərzi bütün üslubi çalarlarda təhlilə cəlb olunmuşdur.

Azərbaycan ədəbiyyatında ilk satirik mətbuat orqanı olan "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilərin yaradıcılığı orta və ali məktəblərdə tədris olunur, ziyalılar tərəfindən maraqla qarşılanır. Bu baxımdan satirik poeziyanın inkişafında müstəsna rol oynayan M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Razi, B.Abbaszadə kimi şairlərin yaradıcılığının öyrənilməsində elm və təhsil məsələlərinə həsr olunmuş məqalələrin də əhəmiyyətli rol oynayacağına inanırıq.

**ƏDƏBİYYAT**

1. Həbibbəyli İ. Ədəbi şəxsiyyət və zaman. Əsərləri, 10 cilddə, II cild. Bakı, "Elm və Təhsil", 2017.
2. M.Ə.Sabir. Hophopnamə. Bakı, "Təhsil", 2012.
3. M.Ə.Sabir. "Molla Nəsrəddin", 1908, №2.
4. Hərdəmxəyal. Bizim qız. "Molla Nəsrəddin", 1924, №23.
5. Əli Nəzmi. Şeirlər. Bakı, Azərnəşr, 1963.
6. Bayraməli A. Seçilmiş şeirlər. Bakı, Azərnəşr, 1964.